UOT 94; UOT 32:93/94

TALEH CƏFƏROV
ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının dos.v.i.e., tarix üzrə fəlsəfə doktoru, BDU-nun Azərbaycan tarixi kaferasının (humanitar fakültələr üzrə) elmlər doktoru proqramı üzrə qiyabi doktorantı
https://orcid.org/0009-0005-4833-0679
talehceferov697@gmail.com

ŞƏBNƏM CƏFƏROVA
BDU-nun Türk xalqları tarixi kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-3070-198X
shabnamjafarova@bsu.edu.az

TÜRK DİASPORUNUN AVROPAYA İNTEQRASİYASI VƏ SİYASİ PROSESLƏRDƏ İŞTİRAKI

DOI: https://doi.org/10.36719/2708-065X/110/79-84

Türk diasporunun Avropaya inteqrasiyasının hüquqi əsaslarının formalaşdırılması və təşkilləşdirilməsi müasir dövrün ən mühüm problemlərindən biridir. Müasir dövrdə dünyada inkişaf edən türk diasporu mövcud olduqları cəmiyyətlərə sürətlə inteqrasiya etməklə yanaşı, siyasi proseslərin iştirakçılarına çevrilməkdədirlər. Avropa Birliyi ölkələrində siyasi prosesin əsas iştirakçılarına çevrilməkdə olan türk diasporu sürətlə təşkilatlanmaqdadır. Əcnəbilərin siyasi proseslərdə iştirakının təmin edilməsi məqsədilə bir çox Qərbi Avropa ölkələrində Vətəndaşlıq Aktlarına mühüm düzəlişlər və əlavələr edilmiş, qanunvericilik bazası təkmilləşdirilmişdir. Diaspor türklərinin siyasi proseslərdə iştirakına qoyulmuş bütün maneələr aradan qaldırılmışdır.

Açar sözlər: siyasi sistem, türk diasporu, Avropa Birliyi, lobbiçilik, siyasi fəallıq.

Giriş. Bu gün dünyada ən qabaqcıl diasporlar arasında Hind, Çin, İrlandiya və Afrika diasporlarını qeyd etmək lazımdır. Türk diasporunu inkişaf etdirməyi hədəfləyən Türkiyə Respublikası Xarici İşlər Nazirliyi, Milli Təhsil Nazirliyi, Diyanət İşləri Başkanlığı və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyini bu işə cəlb etmişdir. Türk diasporunu vahid koordinasiyada birləşdirmək məqsədilə Baş nazirlik yanında Yurtdışı Türklər və Əqraba Topluluqları Nazirliyi və Yunus Əmrə Vəqfi yaradılmışdır. 2009-cu ildə İstanbulda keçirilən Dünya Türk Sahibkarlar Qurultayında diaspor anlayışı ilk dəfə DEİK-DTİK tərəfindən gündəmə gətirildi. Daha sonra 2011-ci ildə İstanbulda keçirilən Dünya Türk Sahibkarlar Qurultayı "Türk diasporu üçün tövsiyələr" adlı araşdırma hazırlanması və 155 üzv ölkə ilə Beynəlxalq Miqrasiya Təşkilatının 2012-ci ildə diasporun inkişafı ilə bağlı strateji plan və yol xəritəsi təklif etməsi diasporun həm Türkiyə, həm də dünya üçün strateji əhəmiyyət daşıdığını göstərdi.

Qeyd edək ki, 1900-cü illərin sonunda dünya üzrə diaspor icmalarının ümumi sayı təxminən 155 milyon nəfər olduğu halda, 2000-ci illərdə bu rəqəm 175 milyona, 2013-cü ilin sonunda isə 235 milyona çatmışdır. Bu sürətli artım diaspor anlayışının beynəlxalq sistemdə daha çox istifadə olunmasına yol açmış və beləliklə də onun ölkələrin siyasətinə inteqrasiyasına səbəb olmuşdur [1, 16].

Diaspor tədqiqatçısı Robin Cohen diasporu beş kateqoriyada araşdırır: ticarət, əmək, mədəniyyət, yuxarı sınıf və qurban. Bu təsnifatlar öz növbəsində diasporun miqrasiya ölkəsində yerləşdiyi yeri müəyyənləşdirərkən miqrasiyanı şərtləndirən amilləri müəyyən etməyə imkan verir [1, 19].

Lowy İnstitutu Qlobal məsələlər proqramının direktoru Michael Fullilobe çıxışlarının birində qeyd edir ki, diasporun ölkəsinə verə biləcəyi maddi töhfələr arasında ikitərəfli ticarət əlaqələrini inkişaf etdirmək, birbaşa xarici investisiyaları təş-viq etmək və işgüzar əlaqələrdə vasitəçilik etmək daxildir. Onlar vətənlərinə qayıdanda özləri ilə təcrübə, uğur hekayələri və kommunikasiya şəbəkələri

gətirəcəklər". Orozco isə diasporun ana vətəninə təmin edəcəyi iqtisadi təsirinin 5 əsas ölçüyə malik olduğunu qeyd edirdi: nəqliyyat, telekomunikasiya, turizm, pul köçürmələri, ticarət [1, 32-33].

Diasporun həyata keçirdiyi digər fəaliyyət sahəsi pul köçürmələridir. Bu köçürmələr müxtəlif fondlar və ya xeyriyyə təşkilatları vasitəsilə həyata keçirilir. 2010-cu ildə həyata keçirilən və təqribən 450 milyard dollar məbləğində qlobal pul köçürmələri diasporun beynəlxalq sistemdəki təsirini əyani şəkildə nümayiş etdirir [1, 33-34].

Bu gün geniş qlobal şəbəkəyə malik olan diasporlar həm öz aralarında, həm də ana vətənləri ilə sıx surətdə əlaqə saxlayırlar. Buna ən bariz nümunə kimi dünya üzrə 70 milyondan çox əhalisi olan İrlandiya diasporunu göstərmək olar. Bunu təxminən 60 milyonluq Çin və 25 milyondan artıq hind diasporu izləməkdədir. Müasir dövrdə dünyada inkişaf edən diaspor şəbəkələrinə Xorvatiya, Çili, Macarıstan, Türkiyə, Sloveniya, Malayziya və Tailand daxildir [1, 34-35]. Diasporların sayı artdıqca ölkələr bu vəziyyətdən faydalanmaq üçün diaspor strategiyalarını genişləndirməyə çalışırlar. Bundan əlavə, milli dövlətlər diaspor fəaliyyətini artırmaqla effektiv yumşaq güc diplomatiyası əldə edir, mühüm beynəlxalq investisiya qərarlarında həlledici təsir nöqtəsinə çevrilirlər.

Qərbi Avropa ölkələri arasında türklərin yaşadığı ən böyük ölkələr şübhəsiz ki, Almaniya, Hollandiya və Belçikadır. Tədqiqatçı Robin Cohen diasporları təsnifatlandırarkən ənənəvi və müasir diasporlar arasındakı fərqi dəyişən qlobal iqtisadiyyat baxımından şərh edir. Ona görə diasporlar qədim və yeni olmaqla iki əsas qrupa bölünməkdədir. Qədim diasporlar da məcburi köç nəticəsində yarananlar və koloniyalaşmanın gətirdiyi diasporlar şəklində qruplaşdırılmışdır. Cohen yeni (müasir) diasporları 3 yerə bölür: a) Ticarət diasporları (yəhudi və Livan diasporu); b) Kapitalist diasporlar (Britaniya diasporu); c) İşçi diasporları (İrlandiya, Çin, Hindistan, Siqx icması və türk diasporları [2, 21-22].

Beynəlxalq Miqrasiya Təşkilatının dərc etdirdiyi raportda diasporu müəyyən etmək üçün dörd elementdən bəhs edilir. Raportda diaspor anlayışı üçün gərəkli olan "zaman", "doğum yeri", "vətəndaşlıq" və "şəxsiyyət və mənsubiyyət" amilləri araşdırılmışdır [2, 22].

Avropada yaşayan türklərin siyasi fəallığının ən yüksək olduğu ölkələr içərisində Almaniya, Hollandiya və Belçika fərqlənir. 2011-ci ilin sonuna olan məlumata görə, Almaniya əhalisinin (81 milyon 314 min 906 nəfə) 7 milyon 409 min 754 nəfərini əcnəbilər təşkil etmişdir. Bu da Almaniya əhalisinin 9,1%-inə bərabərdir. Bu say Almaniyanı Avropada ən çox əcnəbi yaşayan ölkə durumuna gətirmişdir. Seçki qanunvericiliyinə görə, yaşı 18-dən yuxarı olan hər bir Almaniya vətəndaşı (ən azı bir il Almaniya vətəndaşı olmaq şərti ilə) seçmək və seçilmək hüququna malikdir [2, 56].

1991-ci il yanvarın 1-də qüvvəyə minən "Əcnəbilər haqqında" qanun həmin tarixə qədər hüquqi statusu bəlli olmayan immiqrantları sistemə daxil etməyə başladı. Bu qanun əcnəbilərin ölkəyə girişi, yaşayış yeri və dolanışıq kimi məsələlərlə yanaşı, mühacirlərin Almaniya vətəndaşlığını əldə etmələri üçün tələbləri də müəyyən edir. Qanun 16-23 yaş arasındakı gənclərdən 8 il Almaniyada yaşamağı və 6 il alman məktəblərində təhsil almağı tələb edir. Yaşı 23-dən yuxarı olanlar üçün yaşayış müddəti 15 il müəyyən edilir və bu müddət ərzində onlar öz himayəsində olan şəxsləri sosial yardım və işsizlik müavinəti almadan təmin etməlidirlər.

Alman Vətəndaşlıq Qanununda immiqrantların vətəndaşlığa qəbul edilə biləcəyi ilə bağlı məsələ açıq şəkildə bildirilir. Mühacirlərin vətəndaşlığa qəbul edilməsi ilə bağlı qanun bir çox məsələləri özündə ehtiva edir (3-cü maddənin 1-ci bəndi, 5-ci yarımbəndi). Bu maddələrə təkcə bəndlərin yerinə yetirməli olduğu şərtlər deyil, həm də həyat yoldaşları və uşaqları ilə bağlı olanlar, habelə ərizənin rədd edilməsinə səbəb ola biləcək hallar daxildir. Qanunun 10-cu maddəsində iki mühüm amil xüsusi ilə miqrantlar üçün vacib hesab edilir: alman dili biliyi və vətəndaşlıq testi. Burada dil biliyi tələbinə görə ərizəçilər B1 səviyyəsində alman dili biliyini sübut edən bir imtahan verməlidirlər. Bundan əlavə, Almaniyada doğulmuş mühacir uşaqları üçün də qanunda müəyyən dəyişikliklər nəzərdə tutulmuşdur. Alman hökuməti 1 yanvar 2000-ci il tarixindən etibarən vətəndaşlıq məsələsini "qan bağları"na deyil, "doğum yeri" prinsipinə əsasən müəyyən edir. Müvafiq olaraq, Vətəndaşlıq Aktının 4-cü maddəsi valideynlərdən biri Almaniya vətəndaşıdırsa və ya Almaniyada səkkiz ildən artıq qanuni yaşayırsa, uşaq Almaniya vətəndaşı sayılır. Lakin bu uşaq 23 yaşına qədər iki vətəndaşlıqdan birini seçməlidir. "Seçim qaydası" adlanan bu şərt Almaniya qanunlarının ikili vətəndaşlığa icazə verilməməsindən irəli gəlir [3, 155].

2014-cü ildə seçim qaydasında müəyyən dəyişiklik edildi. İyulun 3-də Almaniya Bundestaqı tərəfindən seçim qaydasının tətbiq edilməyəcəyi hallar müəyyən edildi. Dəyişikliyə görə, "Avropa İttifaqının üzvü olan dövlətin və ya İsveçrənin vətəndaşı olmayan valideynlərdən Almaniyada doğulan və Almaniyada böyüyən uşaqlar seçim qaydasından azad olunacaqlar". Bu yeni müddəaya görə, son səkkiz il Almaniyada yaşayan, altı il Almaniyada təhsil almış, alman məktəbi diplomuna malik olan və ya Almaniyada peşə təhsili almış uşaqlar Almaniyada böyümüş hesab olunur və seçim qaydasından azad edilir.

Almaniya Konstitusiyası alman vətəndaşlarına birlik yaratmaq hüququnu verdiyi halda, burada əcnəbilərlə bağlı heç bir müddəa öz əksini tapmamışdır. Bununla belə, 1964-cü ildə düzəliş edilmiş Asossiasiyalar Qanunu əcnəbilərə müstəsna əsaslarla birliklər yaratmaq hüququ verdi.

2011-ci ilə aid hesablamalara görə, Hollandiya əhalisi 16 milyon 595 min müəyyən edilmişdir ki, onun da 652 min 200 nəfərini və ya 3,9%-ni əcnəbilər təşkil etmişdir [2, 59]. Hollandiya Konstitusiyası Nümayəndələr Palatasının üzvü olmaq və ya üzvlərinin seçilməsində səs vermək üçün Hollandiya vətəndaşı olmağı tələb edir (4, 54, 56-cı maddələr). Qeyd edək ki, Konstitusiyada vətəndaşlıq hüququ ilə bağlı birbaşa müddəa yoxdur və bunun qanunla tənzimlənəcəyi bildirilir (2-ci maddənin 1-ci bəndi). Vətəndaşlıq Aktında isə əcnəbilərin ölkəyə qəbulu kifayət qədər mürəkkəb maddələrlə tənzimlənir.

Vətəndaşlıq Aktında vətəndaşlığın verilməsi üçün müəyyən edilən meyar əcnəbilərin ölkədə yaşama müddətidir. Vətəndaşlıq üçün müraciət edildiyi tarixdə ən azı beş il daimi yaşamaq tələbi (8-ci maddənin 1-ci bəndinin c bəndi) müxtəlif səbəblərə görə azaldıla və ya ondan imtina edə bilər. Hollandiyada cəmi on il yaşayanlar üçün bu müddət iki ilə endirilir (8-ci maddənin 3-cü bəndi). Hollandiya vətəndaşı ilə ən azı üç il evli olanlar üçün isə bu müddət tələbindən tamamilə imtina edilir (8-ci maddənin 2-ci bəndi). Bir əcnəbinin müddətsiz Hollandiya vətəndaşlığını əldə etməsi üçün yetərli dərəcədə holland dilini bilməsi və cəmiyyətə inteqrasiya olunması üçün Hollandiyanın siyasi quruluşu və cəmiyyəti haqqında kifayət qədər biliyə malik olmalıdır (8-ci maddənin 1-ci bölümünün c bəndi). Bu maddə "vətəndaşlıq testi" və "dil biliyi imtahanı" üçün əsas təşkil edir. Bundan əlavə, bu qanuna əsasən, vətəndaşlıq üçün müraciət edənlər "Hollandiya cəmiyyəti ilə həmrəylik nümayiş etdirməlidirlər (maddə 8, fıkra 1, bənd e) [2, 60].

Seçki vaxtı ən azı beş il ardıcıl olaraq Hollandiyada yaşamış və yaşamağa davam edən əcnəbilər yerli (regional olmayan) seçkilərdə iştirak etmək hüququna malikdirlər. (Bölmə B3, maddə 2 (b)). Təmsilçilər Məclisi üçün isə Konstitusiyada nəzərdə tutulduğu kimi vətəndaşlığa sahib olma və Hollandiyada hazırki yaşayış yeri şərtdir (maddə B1). Göründüyü kimi, Seçki Qanununda əcnəbilər üçün heç bir əlavə məhdudiyyət və imtiyazlardan bəhs olunmur.

Ölkə qanunvericiliyi Hollandiyada yaşayan hər bir kəsin təşkilatlanma azadlığını da zəmanət altına almaqdadır. Əcnəbilər də Həmkarlar İttifaqı kimi təşkilatlara üzv ola bilərlər. Bu, əcnəbilərin siyasətə təsir imkanlarını daha da gücləndirir.

2004-cü ildə sayları 400 min nəfərə çatan Hollandiyadakı türk diasporunun təxminən yarısı ölkə vətəndaşı statusu almışdır. Hollandiyadakı türk diasporu digər etnik qruplara görə yerli və beynəlxalq siyasətə qatılım, Avropa Parlamentində təmsilçi olma və sahibkarlıq fəaliyyətilə təsirli bir mənzərə ortaya qoymaqdadır. Hollandiyada türk miqrantlar Tunisli köçkünlərlə birlikdə ən çox əhali sayına malik olanlardır [4, 68]

Belçika ərazisinə görə Avropanın kiçik bir ölkəsi olsa da, əhalisi daha sıx məskunlaşmışdır. 2011-ci ilə aid məlumatlara əsasən, Belçikanın 10 milyon 839 min 900 nəfər əhalisinin 1 milyon 52 min 800 nəfərini əcnəbilər təşkil etmişdir. O zaman bu rəqəm ümumi əhalinin 9,7%-nə bərabər idi. Belçika Statistika İnstitutunun 2020-ci il məlumatlarına görə, ölkə əhalisinin 11 milyon 492 min 641 nəfər olduğu müəyyən edilmişdir. Əhalinin yalnız 37 min 717 nəfərini Türkiyə vətəndaşlığına malik olanlar təşkil etmişdir. Belçika vətəndaşı olan türklər bu rəqəmlərə daxil edilməmişdir. 2018-ci ilin sonuna olan məlumata görə, Belçika vətəndaşlığına malik türklərin sayının 215 min civarında olduğu müəyyən edilmişdir [5, 6-7]

Aparılan anket araşdırmalarından əldə olunmuş məlumatlara görə, Belçika türklərinin yarıdan çoxu (58%) Türkiyədə, 42%-i isə Belçikada doğulmuşdur. Türkiyədə doğulan Belçika türklərinin əksəriyyətinin daha çox əyalətlərdən olduğu müəyyən edilmişdir. Belçika türklərinin böyük bir hissəsi

(66%) miqrasiya etmədən əvvəl Belçikada ailəsinin olduğunu, qalan 34%-nin isə ilk dəfə miqrant olduqlarını bildirmişdilər. Buna görə də demək olar ki, miqrasiyanın ən çox yayılmış forması evlilik və ya ailə birləşməsi yolu ilə həyata keçirilirdi [6, 38-39].

Göründüyü kimi bir çox Avropa ölkəsində olduğu kimi, Belçikada da vətəndaşlıq almaq çətinləşir və qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün məhdudiyyətlər tətbiq edilir. Vətəndaşlıq əldə etmək üçün yaşayış müddətlərinin artırılması, dil bilmə tələbləri, müəyyən müddət ərzində ölkədə işləmək, sosial inteqrasiyanın təmin edilməsi kimi yeni qaydalar tətbiq edilir. Nəticədə, bu, vətəndaşlıq statusu alanların sayının azalmasına və immiqrasiyaya məhdudiyyətlərin qoyulmasına yol açmışdır.

Belçika Avropanın siyasi mərkəzi hesab olunur. Belçika Konstitusiyasının 8-ci maddəsi vətəndaşlıqla bağlıdır. Bu maddəyə görə vətəndaşlığın necə əldə ediləcəyi, saxlanılacağı, itiriləcəyi ilə bağlı tənzimlənmələr Vətəndaşlıq Qanununda öz əksini tapmışdır.

1984-cü ildə qüvvəyə minən və 2000-ci ildə yenidən işlənən Qol qanunu immiqrasiyanın artmasına töhfə verən və immiqrasiya hüququnun əsasını əks etdirən əhəmiyyətli qanun sayılır. Qeyd edək ki, Qol qanunu türklərə Belçikada vətəndaşlıq qapılarını açdı. Beləcə, Belçika vətəndaşlığını alan türklər seçki və siyasi vəzifələrdə iştirak etmək hüququ qazanaraq siyasətdə fəal rol oynamağa başladılar. Həmçinin bu qanun bəzi immiqrantları öz ölkələrinə qayıtmağa təşviq etdi, digərlərini isə vətəndaşlıq vermək və sənədsiz immiqrantları məhdudlaşdırmaqla inteqrasiya etməyi hədəflədi. Bundan əlavə, 3 sentyabr 1991-ci ildə vətəndaşlıq tələbləri yumşaldıldı və mühacirlərin üçüncü nəsil uşaqlarına birbaşa vətəndaşlıq verildi. 2000-ci il martın 1-dən sonra qüvvəyə minən bu qanun Belçikanın immiqrantların vətəndaşlıq yolu ilə inteqrasiyasında mühüm rol oynadı.

Belçika Konstitusiyasına görə, seçkilərdə səs vermək üçün 18 yaşına çatmış Belçika vətəndaşı olmaq yetərlidir (maddə 61). Nümayəndələr Palatası üzvlüyünə namizəd olmaq üçün şəxs Belçika vətəndaşı olmalı, Belçikada yaşamalı və 21 yaşına çatmalıdır (maddə 64). Belçika Seçki Qanununa nəzər saldıqda 18 yaşdan yuxarı hər bir Belçika vətəndaşının seçici olmaq hüququ vardır (maddə 1).

Belçika Konstitusiyasının 9-cu maddəsində deyilir ki, vətəndaşlıq hüquqları federal qanunverici orqan tərəfindən verilə bilər. Bu maddə 74-cü maddə ilə qüvvəyə minir. Burada vətəndaşlıq hüquqlarının verilməsi Kral və Deputatlar Palatası tərəfindən birgə həyata keçirilən məsələdir. Vətəndaşlıq haqqında Qanunun 15 və 21-ci maddələri də bu təcrübəyə əsaslanır. Vətəndaşlıqla bağlı ərizələr bütün hallarda Kral prokurorluğuna göndərilir.

Vətəndaşlıq Qanununa görə, Belçika vətəndaşlığını əldə etməyin iki yolu vardır: vətəndaşlığın əldə edilməsi və vətəndaşlığa qəbul. Belçikada doğulmuş, doğulduğu zaman vətəndaşlığı olmayan, 18 yaşına çatmamış vətəndaşlığını itirmiş, son 10 il ərzində ən azı beş il Belçikada yaşamış və ya valideyni Belçikada anadan olmuş (maddə 10-11), eyni zamanda evladlıq olaraq bu xüsusiyyətləri daşıması Belçika vətəndaşlığını əldə etməyə imkan verir. Valideynləri vasitəsilə vətəndaşlıq əldə edənlər üçün 8-ci maddə tətbiq olunur. Bu maddəyə görə, valideynlərindən birinin Belçika vətəndaşı olması mütləqdir.

Belçika Konstitusiyasında yerli seçkilərlə bağlı da mühüm məsələlər öz əksini tapmışdır. Aİ-yə üzv ölkələrin vətəndaşları yerli seçkilərdə səs verə və namizəd kimi iştirak edə bilərlər. Bununla belə, Belçikada beş il yaşayan əcnəbilər də öz yaşadıqları məntəqələrdə seçici kimi səs verə bilərlər. Bu hüquq Belçika Konstitusiyasının 8-ci maddəsində təsbit olunub və 19 may 2004-cü il tarixli qanunla tənzimlənir. Qeyd edək ki, qanunun qəbulundan sonra 2006-cı ildə keçirilən yerli seçkilərdə 115 min əcnəbinin səsvermə hüququna malik olduğu üzə çıxmışdır [7, 4-5].

Belçika türklərinin yaşadıqları ölkənin siyasi proseslərində iştirakına qoyulan məhdudiyyətlər, demək olar ki, aradan qaldırılmışdır. Xatırladaq ki, siyasi iştirak fərdlərin və siyasi gücün qarşılıqlı əlaqədə olduğu bir anlayış kimi müəyyən edilir. Siyasi iştirak təkcə səsvermə davranışını deyil, həm də çoxşaxəli hərəkətləri, o cümlədən siyasi fəaliyyətləri izləmək, partiyaya üzv olmaq, assosiasiya fəaliyyətlərində iştirak etmək və ya siyasi etirazlarda iştirak etməyi əhatə edir [8, 251].

Belçika Konstitusiyasının 27-ci maddəsi Belçikanın bütün vətəndaşlarına dərnəklərə, birliklərə üzv olmaq hüququ verir. Dərnəklər haqqında Qnunun 46-cı maddəsində nəzərdə tutulur ki, ölkədə yaşayan əcnəbilər tərəfindən qurulan birliklər, təşkilatlar həm də beynəlxalq birliklər kimi hüquqi şəxs statusuna malik olacaqlar.

Nəticə. Göründüyü kimi, hər üç Avropa ölkəsinin qanunvericilik aktları əcnəbi statusunda olan şəxslərin siyasi iştirakına bir sıra əngəllər yaratmaqdadır. Siyasi iştirak təkcə səsvermə davranışını

deyil, həm də çoxşaxəli hərəkətləri, o cümlədən siyasi fəaliyyətləri izləmək, partiyaya üzv olmaq, assosiasiya fəaliyyətlərində iştirak etmək və ya siyasi etirazlarda iştirak etməyi əhatə edir. Son illər Qərbi Avropa ölkələri miqrantların qeyri-qanuni miqrasiyalarının qarşısını almaq məqsədilə qanunları sərtləşdirmiş, vətəndaşlıq almaq qaydaları sərtləşdirilir. Qeyd olunan ölkələrin Seçki Qanunlarında əcnəbilər üçün heç bir əlavə məhdudiyyət və imtiyazlardan bəhs olunmur.

ƏDƏBİYYAT

1. Telli, Resul. Avrupa Birliginde girişimci türk diasporası (Hollandaya bakış). Egin Basım Yayın Evi, Ankara, 124 s.
2. Tolga Sakman. Türk diasporasının Avrupa siyasal sistemine katılımı: Almanya, Hollanda, Belçika. Çizgi Kitabevi, Konya, 222 s.
3. Keskin, H. Türklerin Gölgesinde Almanya. İstanbul: Doğan Kitap, 2011. 212 s.
4. Resul, T. Avrupa Birliginde Girişimci Türk Diasporası (Hollandaya Bakış). Ekin Baim Yayın Dağıtım, Ankara, 2018, 124 s.
5. Esma Sağdıç. Belçikada Türk Diasporası. Sakarya Üniversitesi Türk Akademi Dergisi, 2022, 1(1), s. 1-14.
6. Kaya, A., Kentel, F. Belçika Türkleri Türkiye ile Avrupa Birligi arasında körpü mü, engel mi?. İstanbul Bilgi Üniversitesi Yayınları, 2008. 220 s.
7. Binfikir. Yabancılar İçin Oy Kullanma Klavuzu. Binfikir (6), 2006, Nisan, 4-5.
8. Yontar, İ., Savut E. Seçilmiş Avrupa ülkeleri ve Türkiyede göçmenlerin siyasal katılımı. Yönetim Bilimleri Dergisi, 14(28), s. 251-288.

ТАЛЕХ ДЖАФАРОВ
И.о.доцента кафедры Всеобщей истории и технологии преподавания истории АГПУ, доктор философии по истории заочный докторант докторантуры кафедры истории Азербайджана гуманитарного факультета БГУ

ШАБНАМ ДЖАФАРОВА
Преподаватель кафедры истории тюркских народов БГУ, доктор философии по истории

ИНТЕГРАЦИЯ ТУРЕЦКОЙ ДИАСПОРЫ В ЕВРОПУ И УЧАСТИЕ В ПОЛИТИЧЕСКИХ ПРОЦЕССАХ

Формирование и организация правовой базы для интеграции турецкой диаспоры в Европу является одной из важнейших проблем современной эпохи. В современную эпоху турецкая диаспора, развиваясь в мире, стремительно интегрируется в общества, в которых она существует, а также становится участником политических процессов. Турецкая диаспора, становясь основным участником политического процесса в странах Европейского Союза, стремительно самоорганизуется. В целях обеспечения участия иностранцев в политических процессах во многих западноевропейских странах внесены важные изменения и дополнения в законы о гражданстве, а также улучшена законодательная база. Устранены все препятствия для участия турок диаспоры в политических процессах.

Ключевые слова: политическая система, турецкая диаспора, Европейский Союз, лоббирование, политический активизм.

TALEH JAFAROV
PhD in History, Associate Professor of the Department of General History and History Teaching Technology, ASPU ,part-time doctoral student in the Doctor of Science program at the Department of Azerbaijani History (Humanities Faculty) of BSU

SHABNAM JAFAROVA
Lecturer of the Department of History of Turkic Peoples of BSU, PhD in History

INTEGRATION OF THE TURKISH DIASPORA INTO EUROPE AND PARTICIPATION IN POLITICAL PROCESSES

The formation and organization of the legal basis for the integration of the Turkish diaspora into Europe is one of the most important problems of the modern era. In the modern era, the Turkish diaspora, which is developing in the world, is rapidly integrating into the societies in which they exist, and is also becoming participants in political processes. The Turkish diaspora, which is becoming the main participants in the political process in the countries of the European Union, is rapidly organizing itself. In order to ensure the participation of foreigners in political processes, important amendments and additions have been made to the Citizenship Acts in many Western European countries, and the legislative framework has been improved. All obstacles to the participation of Turkish diaspora in political processes have been removed.

Keywords: political system, Turkish diaspora, European Union, lobbying, political activism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi:15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Sevinc Seyidova, t.e.d. Qabil Əliyev.